

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 sentyabr 2021-ci il №70 (2578) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb

**Sentyabrın 3-də Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.**

**AZƏRTAC xəbər verir ki, 2003-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1986-2002-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2021-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.**

**"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2021-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.**

**Nazirlər Kabinetinə bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görmək tapşırılıb.**

## Azərbaycanın ərazi bütövlüyü göz bəbəyi kimi qorunur



***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordu quruculuğunu diqqət mərkəzində saxladığını çıxışlarında dəfələrlə vurğulayıb. Ölkə rəhbərliyinin qarşıya qoyduğu əsas vəzifələrdən biri ordunun gücləndirilməsi və ölkənin hərbi qüdrətinin yüksəldilməsi olub. Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, modernləşməsi və ən son hərbi texnologiyalara yiyələnməsi istiqamətində zəruri addımlar atıb. Ötən ilin 27 sentyabrında başlayan və 44 gün davam edən "Dəmir yumruq" əməliyyatı Azərbaycan əsgərinin döyüş hazırlığı ilə yanaşı, Vətən sevgisini də dünyaya nümayiş etdirdi. Göstərdi ki, mərd oğullarımız Vətəni göz bəbəyi kimi qorumağa və onun yolunda canını fəda etməyə hər zaman hazırdır.***

Müzəffər Ali Baş Komandanın sərkərdəliyindən, xalqın sonsuz dəstəyindən güc alan rəşadətli Azərbaycan Ordusu haqq savaşı ilə ölkəmizin Zəfər salnaməsini yazdı. Vətənin müdafiəsini özünə müqəddəs vəzifə bilən oğullarımız düşməni döyüş meydanında darmadağın etdi. Düşmənin 30 il ərzində yaratdığı "məğlubedilməzlik mifi"ni dağıtmaq üçün 44 gün kifayət etdi Azərbaycan əsgərinə. Vətən müharibəsilə xalqın ordusuna inamı bir daha öz təsdiqini tapdı və torpaqlarımız işğaldan azad olundu, tarixi ədalət bərpa edildi. Dövlət başçımızın iradəsi, xalqımızın həmrəyliyi, ordumuzun şücaəti haqq döyüşümüzün Böyük Qələbə ilə sonlanmasında əsas rol oynadı. 2020-ci il 8 noyabr təqvimi tariximizə qızıl hərflərlə həkk olundu, uzun illər həsrətində olduğumuz torpaqlar öz sahiblərinə qayıtdı. Bu gün dədə-baba torpaqlarımızda günəş yenə həqiqi sakinləri üçün doğur.

Günəşin bizlər üçün doğduğu bu yerlərdə Vətənin müdafiəsində duran oğulların görüşünə gəlmişik. İlk müsahibim müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Cəlal Orucov oldu. "Sülh danışıqlarının baş tutmayacağı təqdirdə müharibə qaçılmaz idi. Separatçı qüvvələrin son zamanlar təxribatlara əl atması haqq savaşımızın başlanmasında qığılcım oldu. Çoxdan gözlənilən zaman artıq yetişmişdi, Azərbaycan əsgərinin öz tarixi və müqəddəs missiyasını layiqincə yerinə yetirəcəyinə heç kimin zərrə qədər şübhəsi yox idi. Qısa müddət ərzində bizlər sayəsində torpaqlarımız işğaldan azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Rəşadətli ordumuz hünər meydanında tarixi ədaləti bərqərar etdi. Hərbçi olaraq xidmət etdiyim dövrdə hər zaman torpaqlarımızın işğaldan azad olunması üçün Ali Baş Komandanımızdan gələcək döyüş əmrini gözləyirdim. Ali Baş Komandanın əmrilə əks-hücum əməliyyatı başladı. Döyüşənlərin sırasındayam...

Bu döyüşlərdə ordu da, xalq da Vətən qarşısında vətəndaşlıq borcunu layiqincə ödəmək üçün hər kəs səfərbər olmuşdu. Xalqın orduya inam və dəstəyi bütün dünyaya, sözün həqiqi mənasında, birlik və həmrəyliyimizi nümayiş etdirdi. Azərbaycan xalqı göstərdi ki, onun qələbə əzmini heç nə qıra bilməz. Azərbaycan əsgəri xalqın və Ali Baş Komandanının ona olan etimadını layiqincə doğrultmağı bacardı. Bu gün tam əminliklə deyə bilərik ki, ordumuzun güclü olmasının başlıca səbəbi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin son illərdə apardığı "güclü dövlət, güclü ordu" strategiyasıdır. Qələbəni xalqa bəxş etmək üçün canlarından keçən şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm. Şəhid valideynlərinin qarşısında baş əyirəm. Övladları Vətən uğrunda canlarını qurban verdilər. Şəhidlərimizin adı, əziz xatirəsi Azərbaycan xalqının qəlbində hər zaman yaşayacaq".

**(Ardı 2-ci səhifədə)**

# Müdafiə Nazirliyinin rəhbərliyi “Üç qardaş - 2021” təliminə hazırlıq işləri ilə tanış olub



*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sentyabrın 6-da Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan, Türkiyə və Pakistan xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə baş tutacaq "Üç qardaş - 2021" beynəlxalq təliminin keçiriləcəyi ərazi ilə tanış olub.*

Müdafiə nazirinə təlimə hazırlıq prosesi və digər təşkilati məsələlərlə bağlı məruzə edilib.



Təlimin yüksək səviyyədə təşkili və keçirilməsi üçün müvafiq göstərişlər verilib.

# Azərbaycanın ərazi bütövlüyü göz bəbəyi kimi qorunur

**(Əvvəli 1-ci səhifədə)**

Növbəni təhvil verən əsgər Həsənağa Hüseynovla da söhbətləşdik. "Tarixən bu torpaq igid oğullar məskəni olub, bu gün də tarixi qəhrəmanlıq ənənələrimiz layiqincə yaşadılır. 2020-ci il sentyabrın 27-də başlayan haqq savaşımızın tarixi Zəfərlə sonlanması Azərbaycan əsgərinin dəmir iradəsi, Ali Baş Komandanın yenilməz qətiyyəti və xalqın birliyinin məhsuldar nəticəsidir. Hər kəs bu günü çoxdan gözləyirdi. Azərbaycan əsgəri ona olan inamdan güc alaraq tarix yazdı. Bu tarix əsrlər boyu yaddaşlarda qalacaq. Şanlı ordumuz qısa müddət ərzində böyük uğurlara imza ataraq düşmənin uzun illər "möhkəmləndiyi" istehkamları yerlə yeksan etdi. Bu gün işğaldan azad olunan tarixi torpaqlarımızda xidmət edirəm. Hərbi sirlərə dərindən yiyələnməyə çalışır, komandirlərin tövsiyələrini diqqətlə dinləyirəm. Hərbi xidmət mətinlik, dözümlülük, qorxmazlıq keyfiyyətlərimi artırmaqla yanaşı, Vətən sevgisinin də nə demək olduğunu mənə dərindən öyrədir. Bizlər də qəhrəman oğullarımızın canı və qanı bahasına azad olunan və bizə əmanət edilən torpaqları göz bəbəyi kimi qorumalıyıq". Həsənağayla söhbət əsnasında öyrəndik ki, idmanın kikboksinq növü ilə məşğul olub və yaşının az olmasına baxmayaraq müxtəlif miqyaslı turnirlərdə nailiyyətlər qazanıb. "Uşaq yaşlarımdan kikboksinqlə məşğul oluram. Bir neçə dəfə Avropa və Respublika birincisi adını qazanmışam. Avropa birinciliyinin finalında rəqibim erməni idi. Birinci raundun ilk dəqiqəsində rəqibimi yerə sərməyi bacardım. Sevincimin həddi-hüdudu yox idi. Bu gün də Vətəni müdafiə edən biri kimi, torpağıma əl uzadanın əllərini qırmağa hazıram".

Əsgər Xanlar Xanlarov isə hərbi xidmətin bu torpaqda boya-başa çatan hər kəs üçün övladlıq borcu olduğunu qeyd edərək söhbətə başladı. "Hərbi xidmət övladlıq borcudur. Bu torpaqda böyüyüb boya-başa çatan hər kəs bu torpağın suyu və havası ilə yaşayır. Bunun üçün də Vətəni yaşatmağa borcludur və onu müdafiə edərək kənar qüvvələrdən qorumağa hər zaman hazır olmalıdır. İşğalda olan torpaqlarımız və doğma yurdundan didərgin salınan insanlar haqqında valideynlərimdən və



müəllimlərimdən çox eşitmişəm. Xocalı hadisələri, Birinci Qarabağ müharibəsi dövründə əsirlərimizə işgəncələrin verilməsi düşmənə nifrətimi son həddə çatdırmışdı. Hərbi mundir geyinib ordu sıralarına qatılacağım günün həsrəti ilə alışıb-yanırdım. Qismət elə gətirdi ki, döyüşlərin birbaşa iştirakçısı olmasam da, işğaldan azad olunan tarixi torpağımızda Vətənimi müdafiə edirəm. Böyük fəxr hissi ilə deyirəm ki, 44 günlük Vətən müharibəsi Azərbaycan əsgərinin istər döyüş hazırlığının, istərsə də vətənpərvərlik ruhunun yüksək olmasını sübut etdi. Bu keyfiyyətləri üstün olan əsgər qarşısıalınmazdır. Xalqın mənəvi dəstəyindən, Ali Baş Komandanının qətiyyətindən güc alan Azərbaycan Ordusu düşmənin layiqli cavabını verdi, onu məğlubiyyətə məhkum etdi. Bu gün fəxr edirəm ki, haqq savaşımızda iştirak edən hərbi hissədə xidmət edirəm və komandirlərim də bu döyüşlərə qatılmış təcrübəli zabitlərdir. Xidmətimizin qalan hissəsində də komandirlərimizin təcrübələrindən faydalanacaq, əsl döyüşçü kimi formalaşmağım üçün əlimdən gələni edəcəyəm. Gördüyümüz işin müqəddəsliyini dərk edirəm. Bundan sonra da Azərbaycan əsgəri olaraq xalqımızın və Ali Baş Komandanımızın bizlərə olan inamını və etimadını layiqincə doğruldacağam".

Əsgərlər Elməddin Babayev, Ehtibar Əmrahov və Orxan Məmmədovun torpaqlarımızın keşiyində durmaqdan fəxarət hissi keçirdiklərinin şahidi olduqca, əmin oldum ki, rəşadətli ordumuz vətənpərvər, qorxmaz, cəsur oğullardan ibarətdir. O cəsur oğullar ki, haqq savaşımızda geriyə bir addım atmadı, döyüş meydanında yaralansa da silahdaşlarını tək qoymadı, ancaq irəlilədi. Qazanılan Böyük Qələbə cəmiyyətimizin xoş ovqatını daha da artırdı, şəhidlərimizin ruhunu rahatlatdı, onların ailələrinin təsəllisi oldu. İkinci Qarabağ müharibəsi ordumuzda aparılan quruculuğun və modernləşmənin nəticələrinin döyüş meydanında praktiki isbatı oldu. Bu gün həm vətənpərvər oğullarımıza, həm də müasir standartlara cavab verən arsenalımıza arxalanaraq qətiyyətlə deyə bilərik ki, Azərbaycanın ərazi bütövlüyü göz bəbəyi kimi qorunur, müstəqilliyimiz əmin əllərdədir. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

**Baş leytenant
Fuad CƏFƏROV
"Azərbaycan Ordusu"**

# “TurAz Şahini-2021” birgə taktiki-uçuş təlimləri davam edir



Türkiyə Respublikasının Konya şəhərində keçirilən "TurAz Şahini - 2021" birgə taktiki-uçuş təlimləri davam edir. Təlimin planına uyğun olaraq Azərbaycan və Türkiyə hərbi təyyarəçiləri gündüz döyüş uçuşları həyata keçiriblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, uçuşlardan öncə əməliyyatın planı, hava şəraiti və digər texniki məsələlərlə bağlı brifinq təqdim edilib.

Plana uyğun olaraq Azərbaycan və Türkiyə hərbi təyyarəçiləri birgə əməliyyat çərçivəsində havadan hücumla şərti düşmənin hava hücumundan müdafiə vasitələrini, strateji obyektlərini və bu obyektləri müdafiə edən təyyarələrini məhv etmək tapşırığını uğurla icra ediblər.

Qeyd edək ki, Azərbaycan hərbi təyyarəçiləri təlimə Su-25 hücum və MİQ-29 qırıcı təyyarələri ilə qatılıblar.

Təlimlər sentyabrın 17-dək davam edəcək.

# Azərbaycan və Türkiyə sualtı hücum və sualtı müdafiə qruplarının birgə təlim-məşqləri davam edir





Azərbaycan və Türkiyə Respublikalarının sualtı hücum və sualtı müdafiə qruplarının iştirak etdiyi birgə təlim-məşqləri davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin növbəti mərhələsində Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları qardaş ölkənin hərbi qulluqçuları ilə birlikdə əməliyyatların planlaşdırılması, şərti düşmənin terror-diversiya qrupunun zərərsizləşdirilməsi və onların müvəqqəti bazasının məhv edilməsi üzrə döyüş atışlı təlim tapşırıqları yerinə yetiriblər.

Katerlərin də cəlb olunması ilə keçirilən təlim-məşqlərdə şərti düşmənin hədəfləri məhv edilərək qarşıya qoyulan tapşırıqlar uğurla icra olunub.

# “Beynəlxalq Ordu Oyunları-2021”



"Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində keçirilən "Dəniz kuboku" müsabiqəsi başa çatıb. Sentyabrın 3-də İran İslam Respublikasının Ənzəli şəhərində müsabiqənin bağlanış mərasimi keçirilib.

Tədbirdə iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, Azərbaycan Respublikasının İran İslam Respublikasındakı hərbi attaşesi polkovnik Elvin Qasımov, o cümlədən digər ölkələrin hərbi attaşeləri, hakimlər komissiyasının üzvləri və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Bağlanış mərasimində qalib komandalara kubok, medallar və qiymətli hədiyyələr təqdim olunub.

Müsabiqənin üç mərhələsi üzrə yekun nəticələrinə əsasən İran komandası birinci, Rusiya komandası ikinci, Azərbaycan və Qazaxıstan komandaları isə üçüncü yerdə qərarlaşıb.

* * *

"Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində Qazaxıstan Respublikasının Qvardiya qarnizonunda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsində iştirak edən artilleriyaçılarımız sentyabrın 4-də Bakıya qayıdıb.

Qeyd edək ki, doqquz ölkəni təmsil edən artilleriyaçıların iştirak etdiyi müsabiqədə komandamız üçüncü yerə layiq görülüb. Azərbaycan Ordusunun zabiti polkovnik-leytenant Əhmədov Namiq "Ən yaxşı məşqçi", gizir Orucov Elşadın rəhbərlik etdiyi heyət isə "Ən yaxşı heyət" nominasiyalarının qalibləri olub.

* * *

Moskva şəhəri ətrafında yerləşən "Patriot" parkında "Beynəlxalq Ordu Oyunları-2021" yarışlarının təntənəli bağlanış mərasimi keçirilib.

Mərasimdə Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-mayor Ənvər Əfəndiyev və yarışlarda təmsil olunan digər dövlətlərin nümayəndələri iştirak ediblər.



Bağlanış mərasimində Rusiyanın tanınmış ifaçılarının, o cümlədən "Mədəniyyət Ordusu" müsabiqəsində iştirak edən komandaların birgə konsert proqramı baş tutub.

Tədbir atəşfəşanlıqla sona çatıb.




Qeyd edək ki, Azərbaycan hərbçiləri "Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində Rusiyada "Tank biatlonu" və "Mədəniyyət Ordusu", İran İslam Respublikasında "Dəniz kuboku", Qazaxıstanda "Artilleriya atəşinin ustaları" müsabiqələrində uğurla iştirak ediblər.

* * *

"Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində "Dəniz kuboku" müsabiqəsində iştirak edən Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçuları Bakıya qayıdıb.

Sentyabrın 6-da hərbi dənizçilərimizin qarşılanma mərasimi keçirilib.

Qeyd edək ki, müsabiqəyə HDQ-nin G-122 və G-124 gözətçi gəmiləri ilə qatılan komandamız üçüncü yerə layiq görülüb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrində “Çətin dağlıq ərazilərdə taktiki fəaliyyətlər” mövzusunda nümayiş məşğələsi keçirilib





***Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrində "Çətin dağlıq ərazilərdə taktiki fəaliyyətlər" mövzusunda nümayiş məşğələsi keçirilib.***

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, kiçik komandirlərin idarəetmə bacarığının artırılması, hücum edən və dəstəkləyən bölmələrlə qarşılıqlı əlaqə suallarının işlənilməsi üzrə keçirilən məşğələdə əsas diqqət 44 günlük Vətən müharibəsində qazanılan təcrübəyə və icra edilən müxtəlif atəş tapşırıqlarının həllinə yönəldilib.

Müxtəlif texniki vasitələrdən və pilotsuz uçuş aparatlarından istifadə edərək vizual müşahidə və havadan kəşfiyyat aparmaqla komandirlər tərəfindən düşmən mövqeyi qiymətləndirilir, qəbul edilmiş qərara uyğun olaraq hər bir xüsusi təyinatlıya yerinə yetirəcəyi tapşırıqlar verilir.

Xüsusi təyinatlı qrup ərazinin çətin keçiləbilən relyefindən istifadə edərək düşmənin mühəndis cəhətdən hazırlıqlı mövqeyinə koordinasiyalı irəliləmə ilə gizli şəkildə yaxınlaşır.

Qarşılıqlı fəaliyyətdə olan atəş dəstək qrupunun düşmən mövqeyinə açdığı atəşlərdən yararlanan xüsusi təyinatlılar qrupda mövcud olan silah nümunələrinin sərrast atəşi ilə düşmənin canlı qüvvəsini məhv edərək hakim yüksəkliyi ələ keçirirlər.

Hakim yüksəklikdə mövqelənən xüsusi təyinatlı qruplar düşmənin əks-hücumunu əngəlləmək və digər qruplarımızın təhlükəsiz hərəkətinə şərait yaratmaq məqsədilə tədbirlər görürlər.

# Laçın rayonunda Azərbaycan-Türkiyə birgə təlimi başlayıb



*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, Laçın rayonunda birgə döyüş atışlı taktiki təlim başlayıb.*

Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən təlimdə əsas məqsəd döyüş əməliyyatlarının aparılması zamanı qarşılıqlı fəaliyyətin və döyüş uzlaşmasının təkmilləşdirilməsinə, o cümlədən komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqlarının inkişaf etdirilməsinə yönəldilib.

Təlimdə müasir döyüş texnikası və digər hərbi vasitələrin çətin relyef şəraitində istifadə etmə vərdişlərinin artırılmasına xüsusi diqqət yetirilib.

# Daşkəsən Şəhidlər xiyabanında qürurverici anlar yaşanıb



XX əsrin sonlarından başlayaraq Bakıda və respublikamızın bölgələrində şəhidlər xiyabanları yaranmağa başladı. Milli azadlıq uğrunda mübarizə qurbanlarının, Azərbaycanın ərazi bütövlüyünün qorunması, bərpası, tarixi torpaqlarımızın işğaldan azad edilməsi naminə şəhid olanların məzarları ziyarətgaha, and yerimizə çevrildi.

Şəhidlər xiyabanlarında yüzlərlə, minlərlə igidimiz and içərək qanlı savaşlara yollandı, torpaq uğrunda canından, qanından keçərək şəhadət məqamına yüksəldi, qazi oldu, düşmənin layiqli cavabını verərək qalib döyüşçü kimi geri döndü.

Şəhidlər xiyabanları təkcə anaların, bacıların göz yaşları ilə yuyulan məzarlardan ibarət bir xiyaban, məsum körpələrin, uşaqların ata deyib üz tutduqları ünvan deyil. Şəhidlər xiyabanları Vətənimizin ən dəyərli, mübariz, vətənpərvər və ölməz, unudulmaz, əbədiyaşar oğullarının uyuduqları, ölümlərindən sonra da nəsilləri Azərbaycan uğrunda, torpaqlarımızın hər qarışı uğrunda hər an mübarizəyə hazır olmağa səsləyən məkandır.

Şəhidlər xiyabanları mübarizəmizin, mübarizliyimizin, yenilməzliyimizin, ölməzliyimizin rəmzidir. Şəhidlər xiyabanları qürurumuz, mərdliyimiz, şərəf tariximizdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev vaxtilə demişdir: "Xalqımızın tarixində çox əzəmətli, qiymətli abidələr var. Ancaq Şəhidlər xiyabanı, XX əsrin sonunda Azərbaycan xalqının milli azadlıq uğrunda özünü qurban vermiş, şəhidlərimizin məzarları Azərbaycan Respublikasının, Azərbaycan torpağının ən müqəddəs yeridir və qiymətli abidəsidir."

Daşkəsənlilər də şəhərin girişindəki Şəhidlər xiyabanını müqəddəs bir yer bilir, şəhidləri ehtiramla yad etməyə gəlir, hətta bir xeyir iş görəndə əvvəlcə buranı ziyarət edərək şəhidlərin ruhuna dualar oxuyurlar. Əlamətdar, tarixi günlərdə, bayramlarda burada qələbəlik yaşanır, gənclər böyük həvəslə and içərək ordu sıralarına yola salınırlar.

Təcavüzkar Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünün qorunması və bərpası, eləcə də tarixi torpaqlarımızın işğaldan azad olunması məqsədilə başladığı Vətən müharibəsinin ilk günündən yüzlərlə daşkəsənli gənc də bu müqəddəs məkanda and içərək könüllü olaraq cəbhəyə yollanıb. İndi həmin gənclərdən bir neçəsi burada Birinci Qarabağ müharibəsinin şəhidləri ilə yanaşı uyuyur.

Bir ay öncə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Daşkəsən rayonuna səfəri çərçivəsində ilk olaraq Şəhidlər xiayabanını ziyarət edib, əbədi məşəl qarşısına qızılgüllər düzərək şəhidlərə ehtiramını bildirib.

Dövlətimizin başçısının burada olmasını şəhid ailələri, eləcə də bütün daşkəsənlilər böyük minnətdarlıq hissi ilə qarşılayıblar.

Müdafiə Nazirliynin təşkilatçılığı ilə avqustun 29-da Daşkəsən Şəhidlər xiyabanında Vətən müharibəsi şəhidləri Orxan Etibar oğlu Cəfərlinin və Rüstəm Üzeyir oğlu İsmayılovun doğum günləri münasibətilə keçirilən "Vətən, başın sağ olsun!" adlı vətənpərvərlik tədbirində qürurverici anlar yaşanıb.

Hərbi orkestrin ifa etdiyi "Şəhidlərin xatirəsinə" elegiyasının sədaları altında əbədi məşəl qarşısına nazirliyin adından qızılgül çələngi qoyulub. Şəhidlərin xatirəsinə bir dəqiqəlik sükut elan edilib, Dövlət Himni ifa olunub.

Polkovnik Abdulla Qurbani bu gün Şəhidlər xiyabanına istər qoca olsun, istərsə də cavan, istər hərbçi olsun, istərsə də mülki şəxs, fərqi yoxdur, hamının qalib bir ölkənin vətəndaşı, qalib bir ordunun əsgəri kimi gəldiklərini fəxrlə bildirərək deyib: "Bu gün hər birimiz qürurluyuq. Cənnət Qarabağımızın otuz illik həsrətinə artıq son qoyulub. Birinci Qarabağ müharibəsində ataların başa çatdıra bilmədikləri taleyüklü və şərəfli missiyanı oğullar ləyaqətlə, canlarından, qanlarından keçərək yerinə yetiriblər. Şəhid oğullarımız, qazilərimiz öz qanları ilə alın ləkəmizi yuyublar. Xalqımız qələbə əhval-ruhiyyəsi ilə yaşayır. Hələ də Azadlıq meydanında keçirilən Zəfər paradının təəssüratlarını unutmamışıq, əsrlər keçsə, nəsillər bir-birini əvəz etsə də unutmayacağıq".

Qeyd edilib ki, Azərbaycanın parlaq gələcəyinə hamıdan çox inanan və bu yolda yorulmaz fəaliyyət göstərən Ulu Öndərimizin, o cümlədən unudulmaz şəhidlərimizin ruhları şaddır. Artıq təcavüzkar Ermənistan üzərində tarixi qələbəni qazanmışıq. Bu qələbə xalqımızın birliyinin, həmrəyliyinin, dövlətimizin iqtisadi gücünün, rəşadətli ordumuzun əsgər və zabitlərinin qəhrəmanlığının, Müzəffər Ali Baş Komandanımızın siyasi iradəsinin, sərkərdə məharətinin və əlbəttə, dəmir yumruğumuzun qələbəsidir. Bu qələbə şəhidlərimizin, qazilərimizin Vətən torpağına qarışan qanları ilə qazanılıb və nə qədər Azərbaycan var, qədirbilən Azərbaycan xalqı var, biz varıq şəhidlərimiz heç vaxt unudulmayacaqdır.

*Onlardır bizlə birgə*
*gülüb-sevinənlər də,*
*Onlardır qəlbimizdə*
*heykələ dönənlər də..."*

Tədbirdə hər iki şəhidin 26 illik qısa, lakin hər bir gənc üçün örnək olan ömür yolu və xidmətləri barədə ətraflı məlumat verilib.

Nəzərə çatdırılıb ki, Orxan Cəfərli 1995-ci il avqustun 29-da Daşkəsən şəhərində anadan olub. 2014-2015-ci illərdə Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. Ehtiyata buraxıldıqdan bir müddət sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində xüsusi kurs keçib və hərbi hissənin dağ-atıcı taborunda dağ-atıcı manqanın komandiri və taqım komandirinin müavini kimi xidmətini davam etdirib.

Vətən müharibəsinin ilk günündən Murovdağın zirvələri və Kəlbəcər uğrunda döyüşlərdə fəal iştirak edərək qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə və mərdliklə gəlib. İgidlik nümunələri göstərərək oktyabrın 5-də Füzuli rayonu istiqamətində şəhid olan əmisi oğlu kapitan Həmid Cəfərlinin intiqamını düşməndən artıqla-



ması ilə alıb. Nəşi 40 gün sonra çıxarılsa da, valideynləri başlarını dik tutaraq şəhidi böyük izdihamın iştirakı ilə son mənzilə yola salıblar.

1995-ci il avqustun 29-da Daşkəsən şəhərində anadan olan Rüstəm Üzeyir oğlu İsmayılov da Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra taleyini hərbi peşəyə həsr etmək üçün yenidən ordu sıralarına qayıdıb və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi vəzifələrinin öhdəsindən layiqincə gəlib. O da Murovdağ zirvələrində düşmən mövqelərinə zərbələr endirilməsində, düşmənin xeyli canlı qüvvəsinin məhv olunmasında mərdlik və igidlik nümunələri göstərərək şəhidlik zirvəsinə ucalıb.

Hər iki hərbi qulluqçu ölümlərindən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə döyüş medallarına layiq görülüblər.

Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının müavini Vüqar Məmmədov şəhid adlarının əbədiləşdirilməsi, şəhid ailələrinə diqqət və qayğı göstərilməsi, onların sosial problemlərinin həlli istiqamətində rayonda görülən işlərdən danışıb.

Bir az öncə Kəlbəcərdən qayıdan polkovnik Rasim Manafov respublikamızın bütün bölgələrindən olan hərbi qulluqçularla yanaşı, daşkəsənli əsgər və zabitlərin də bu gün Azərbaycan Ordusunda Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etdiklərini bildirib və diqqətə çatdırıb ki, düşmən yenə də utancverici məğlubiyyəti ilə barışmaq istəmir. Tez-tez mövqelərimizi atəşə tutur, hücum cəhdləri edir. Lakin xalqımız bir daha əmin olmalıdır ki, şəhidlərimizin intiqamını alaraq xalqımıza qələbə sevincini yaşadan



Azərbaycan əsgəri mübariz keşikdə möhkəm dayanaraq düşmənin istənilən təxribatının qarşısını vaxtında və qətiyyətlə alır. Dəmir yumruq yerindədir və azad edilən tarixi torpaqlarımızda ucaltdığımız bayraq heç vaxt enməyəcəkdir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon şöbəsi rəisinin müavini baş leytenant İlkin Umarov daşkəsənli gənclərin böyük həvəslə hərbi xidmətə getdiklərini, valideynlərin onları sevinclə, qürurla yola saldıqlarını qeyd edib.

"El gücü" beynəlxalq humanitar assosiasiyası ictimai birliyinin sədri Sara Zeynalova ölkəmizdə ordu ilə xalqın sağlam mənəvi birliyinin daha da möhkəmləndiyini, xalqın bir amal, bir məqsəd naminə Müzəffər Ali Baş Komandanın ətrafında daha sıx birləşdiyini deyib və "Biz birlikdə güclüyük!", "El gücü, sel gücü" ifadələri ilə çıxışını tamamlayıb.

Daşkəsən rayonunun Alaxançallı kəndindən olan Eyvaz və Kamal Namazov qardaşları Vətən müharibəsində könüllü iştirak ediblər. Kamal Murovdağ zirvələri uğrunda yaralanıb, Eyvaz isə Cəbrayıl və Füzuli döyüşlərindən sağ-salamat qayıdıb. Tədbirdə söz alan Eyvaz Namazov deyib: "Mənim atam Daşkəsənin ilk şəhidlərindəndir. 1992-ci ildə, mən anadan olanda atamın Tərtər döyüşlərindən şəhidlik xəbəri gəlib. Bu gün iftixarla, qürur hissi ilə deyirəm ki, ata, biz iki qardaş həm sənin, həm də Rüstəm, Orxan kimi igid qardaşlarımızın qisasını almışıq, torpaqlarımız azaddır!".

Vətən müharibəsi qazisi ehtiyatda olan baş leytenant Ceyhun Əliyev ürəyinin başında hələ də qəlpə gəzdirsə də yenə düşmənə qarşı vuruşmağa, şəhidlərimizin ruhunu şad etməyə hazır olduğunu bəyan edib.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu İlham Cabbarovun çıxışı tədbir iştirakçılarına duyğulu anlar yaşatsa da, onun son kəlmələri hamını qürurlandırıb: "Mən də arzularla yaşayırdım. Bir döyüşçü kimi ən böyük arzum Zəfər bayrağımızın Murovdağın zirvələrinə, Şuşa qalasına sancılmasını görmək idi. Şükürlər olsun ki, bu arzuma çatdım. İkinci arzum isə Cəbrayıl uğrunda mərdliklə döyüşən oğlum Murazın sağ-salamat qayıdaraq qalib əsgər kimi bəy kürsüsündə oturmasını görmək, ona xeyir-dua vermək idi. Oğlum müharibədən qayıtdı. Ancaq müqəddəs bayrağımıza bükülmüş şəhid kimi! Şəhid atası olaraq qürur duydum, fəxr etdim ki, Murazım da öz arzusuna, öz murazına çatıb. Axı o, həmişə arzu edərdi ki, müharibədən ya qazi, ya da şəhid kimi qayıdıb el içində başımızı uca eləsin. Mənim üçün Muraz ölməyib, şəhidlərimiz ölməyib. Onlar qəhrəmanlıq, mübarizə yolunu göstərən əbədi mayakdırlar".

Şəhid Orxanın hazırda xidmətdə olan qardaşı Elsevər Cəfərlinin "Mən şəhid qardaşımın yarımçıq ömrünü də öz ömrümə qataraq iki ömür yaşayıram və şəhid qardaşı olmağın məsuliyyətini dərk edirəm. Qoy düşmənlərimiz bir daha eşidib agah olsunlar ki, onlar bir də üzərimizə gəlmək fikrinə düşsələr qarşılarında minlərlə, on minlərlə Orxan kimi, Rüstəm kimi oğullar görəcəklər" - sözləri hər kəsin döyüş ruhunu, intiqam hissini daha da artırıb.

Şəhid Rüstəmin anası Nübar, atası Üzeyir İsmayılovlar və şəhid Orxanın anası Zəriş, atası Etibar Cəfərovlar özləri şəhid valideynləri olmalarına baxmayaraq şəhid analarına səbir, dözüm arzulayıblar: "Oğul itkisi, övlad itkisi ağır dərddir. Ancaq gəlin başımızı həmişə uca tutaq, qəddimizi əyməyək, bizə yaraşmaz! Xalqımıza böyük qələbənin sevincini yaşadan bizim övladlarımızdır. Qanları işğaldan azad edilən torpaqlara çilənən, qızıl lalə olub göyərən bizim igidlərimizdir. Analar yenə oğullar doğacaq. Ancaq Vətəni heç nə ilə əvəz etmək olmaz. Əgər övladlarımız Vətən torpaqlarını düşmən tapdağından azad edərək şəhid olublarsa, onlar ölməyiblər, onlar həmişə qəlbimizdə, ürəyimizdə, yanımızdadırlar."

Tədbir hərbi orkestrin ifa etdiyi "Qələbə marşı"nın müşayiəti və Məmməd İlqarın məşhur "Vətən, başın sağ olsun" şeirinin misralarının səsləndirilməsi ilə sona yetib:

*Vətən, başa çox iş gələr,*
*Baş əymə, başın sağ olsun!*
*Biz ölməyə doğulmuşuq,*
*Torpağın-daşın sağ olsun!*

*Neçə cəfakeşin qalır,*
*Bir evdən bir qoşun qalır,*
*Beşin ölsə, beşin qalır,*
*O qalan beşin sağ olsun!*

*Çat verir, çatlayır dözüm,*
*Sən çatlama, canım-gözüm,*
*Bizi ağlamağa gözün,*
*Bir də göz yaşın sağ olsun!*

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Azərbaycan Ordusunda hərbi qulluqçular üçün seminarlar keçirilir



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi və baş verə biləcək neqativ halların qarşısının alınması məqsədilə seminarlar keçirilib.

Seminarlarda Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabitləri və dövlət qulluqçuları, Respublika Hərbi Prokurorluğunun, Psixologiya Elmi-Tədqiqat İnstitutunun, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Qafqaz Müsəlmanları İdarəsinin regional bölmələrinin əməkdaşları mühazirələr oxuyublar.

Çıxış edənlər zabit və əsgərlərimizin mənəvi-psixoloji hazırlığının yüksək olmasından danışıblar. Müdafiə Nazirliyinin rəhbərliyinin şəxsi heyətin mə-



nəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə daim ciddi önəm verdiyi vurğulanıb.

Sonda dinləyicilərin sualları cavablandırılıb və mənəvi-psixoloji hazırlıq mövzusunda kitabçalar tədbir iştirakçılarına təqdim olunub.

# Narkomaniya insanları fəlakətə sürükləyən bəşəri bəladır

***Müsir dövrdə bəşəriyyəti düşündürən qlobal problemlərdən biri də ciddi bəlaya və təhlükə mənbəyinə çevrilən narkomaniyadır. İnsanları fəlakətə sürükləyən, cinayətlərə səbəb olan, taleləri məhv edən narkotik maddə istifadəçilərini tədricən uçuruma aparır, ölümə sürükləyir. Narkotik asılılığın elmi anlayışı ilk dəfə XVIII əsrin əvvəllərində verilib. XX yüzilliyin sonunda narkomaniya müxtəlif xalqların genofonduna sarsıdıcı zərbələr vurub, qarşısıalınmaz bir təhlükəyə çevrilib.***



Narkomaniya bəşəriyyətin ən qorxulu və təhlükəli probleminə çevrilməklə yanaşı, ən ağır xəstəliklərin də mənbəyidir. Bu bəlaya mübtəla olanlar əksər hallarda onu dəf etməkdə aciz qaldıqları üçün daha qorxuludurlar. Bu, bir növ bataqlığa bənzəyir. Bataqlığa düşdüyünün fərqinə varıb oradan çıxmaq üçün çırpınan isə hər hərəkətində daha da dərinə batır. Narkotiklərdən istifadə bataqlıqdan heç də az təhlükəli deyil.

Narkotik maddələrdən bir və ya bir neçə dəfə istifadə etməklə asılılıq yaranır. Tibbi təcrübələr də bu bəla ilə mübarizə aparmağın çətin olduğunu, xilas olma faizinin aşağı olması faktını təsdiqləyir. Narkotikə qurşanmış insanların əksəriyyəti həyatlarını itirirlər.

Bu maddələrdən istifadə edən insanda ilk əvvəl xoş hisslər yaranır. Aldadıcı təsirin - sevinc və enerjinin narkotikdən olmasına inanır. Bu qənaət tamamilə yanlışdır. Əgər hər şey aludəçinin düşündüyü kimi olsaydı, cəmiyyətin ən fərəhli, ən gümrah, öz karyerasında və şəxsi həyatında uğur qazanan insanı olardı.

Ailədə və işdə yaranan problemlər, düzgün seçilməyən mühit, psixoloji zəiflik tez təsir altına düşmə və digər müxtəlif səbəblər zəif insanları narkotikdən istifadəyə yönəldir. Əlbəttə, bu maddələrdən əyləncə məqsədilə istifadə edənlər də var.

Narkomaniyanın yayılması millətin sağlam həyat tərzinə təhlükə törədir. Narkotik, ilk növbədə, narkomanın öz sağlamlığına ziyan vurur. Bu maddələrin qəbul edilməsi ilə insan fiziki və psixoloji cəhətdən məhv olur. Mütəmadi istifadə yaddaş və təfəkkürü pozur, orqanizmin zəifləməsinə, bədənin arıqlamasına və fiziki gücün düşməsinə gətirib çıxarır. Orqanizmin zəhərlənməsi daxili orqanların, xüsusən də qaraciyər və böyrəklərin funksiyasının pozulmasına səbəb olur. Narkomaniyanın yaratdığı və geniş yayılan "Hepatit B" qaraciyər iltihabı çox təhlükəli xəstəlikdir. Bu xəstəliyin narkotik maddələrə aludə olanlar arasında yayılmasına səbəb narkotik maddənin qəbulu prosesində istifadə edilən iynə, şpris və ya digər yoluxmuş alətlərdir. Bu zaman "HİV" və "QİÇS" kimi sağalmaz xəstəliklərə də yoluxmaq mümkündür. Belə ağır xəstəliklərlə yanaşı, narkotikin təsirində olanlar psixoloji sarsıntılar keçirərək ətrafındakı insanlara zərər verməyə başlayırlar.

Narkotik maddələrin qəbul edilməsinin ən dəhşətlisi bir neçə dəfə ondan istifadə edən insanda asılılıq yaratması faktıdır. Bədənin tələb etdiyi vaxtda qəbul edilməməsi həmin şəxsdə psixoloji gərginlik yaradır və onu əsəbləşdirir - onu narkotik maddənin tapılması və qəbul edilməsi üçün vəsait və ya imkanlar axtarmağa vadar edir. Bu şəxsin özünü əsəbi aparması və psixoz durumunda olması ətrafda olan insanlarda qorxu və diskomfort hissi yaradır. Belə insanlar heç bir işlə məşğul ola bilmir, növbəti "doza" üçün hər növ iyrənc hərəkət etməyə məcbur olur. Bunun üçün onlar öz doğmalarına belə "zərbə" vurmaqdan çəkinmirlər. Narkotik qəbul etdikcə ədəbsizlik və yalançılıq yaranır. Bütün maraqları, ümidləri və qarşısına qoyduğu məqsədləri getdikcə sönür.

Dövrümüzdə aludəçilərin əksəriyyətinin gənclər olması böyük məyusluq yaradır. Bunun sonunda dayanan faciəni təsəvvür etmək isə çox qorxuncdur. Çünki gənclər hər bir millətin gələcəyi, dövləti inkişaf etdirən başlıca sütundur. Gəncliyin məhvi gələcəyin məhvidir...

Nikahdan öncə tibbi müayinə artıq bütün dünyada ən çox danışılan və mübahisələrə, müzakirələrə səbəb olan mövzudur. Mütəxəssislərin fikrincə, nikahdan öncə tibbi müayinə gələcəkdə ailə üçün hərtərəfli - həm fiziki, həm də psixoloji baxımdan möhkəm zəmindir.

Narkotik istifadə edən insanlardan doğulan körpələrin fiziki qüsurlu olması qaçılmazdır. Bundan başqa, bu mühitdə böyüyən, tərbiyə alan uşağın hansı psixoloji problemlərinin olmasını təsəvvür etmək çətin deyil.

Narkomaniya insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə ciddi zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına böyük təhlükə yaradan, həmçinin cinayətkarlığın artmasına səbəb olan əsas amillərdən biridir. Məhz bunlara görə ümummilli liderimiz Heydər Əliyev bu növ cinayəti cəmiyyətin "sosial bəlası" adlandırırdı.

Ümummilli liderimiz Heydər Əliyevin "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" 1996-cı il 26 avqust tarixli Fərmanı və digər qanunlar, normativ-hüquqi aktlar narkotiklərlə mübarizənin əsas strateji xəttini müəyyənləşdirmişdir.

Bu gün ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsi və onlara qarşı mübarizə üzrə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, bu sahədə hüquq-mühafizə orqanlarının fəaliyyətinin effektivliyinin gücləndirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi dövlət başçısının və hüquq mühafizə orqanlarının daim diqqət mərkəzindədir. Narkomanlığa qarşı mübarizədə səmərəliliyə nail olmaq üçün aidiyyəti dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexanizminin həyata keçirilməsi məqsədilə yaradılmış Dövlət Komissiyası və ölkə Prezidentinin 2007-ci il 28 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş, 2007-2012-ci illəri əhatə edən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə qarşı, narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram", həmçinin Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" xüsusi təkan vermişdir.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair Dövlət Proqramı"nın (2019-2024-cü illər) təsdiq edilməsi barədə Sərəncamını əldə rəhbər tutaraq illik fəaliyyət planı hazırlamış, aidiyyəti dövlət orqanları, ictimaiyyət, QHT və KİV-lə birlikdə bu fəaliyyət planının yerinə yetirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirmişdir. Hərbi hissə və bölmələrin komandirləri, xüsusi təyinatlı təhsil müəssisələrinin rəisləri, müəssisə və təşkilatların rəhbərləri rayon komissiyalarının müvafiq strukturları birlikdə bu işi daim nəzarətdə saxlamış, kompleks qabaqlayıcı profilaktik tədbirlər həyata keçirmişlər. Bu vacib vəzifələrin yerinə yetirilməsini daim nəzarətdə saxlayan səlahiyyətli şəxslər ordu gəncləri arasında hüquq pozuntusu və narkomaniyaya qarşı mübarizə işinin gücləndirilməsi, gənclərin sağlam həyat tərzi ruhunda tərbiyə olunmaları məqsədilə aidiyyəti təşkilatlarla birgə antinarkotik təbliğat, narkotiklərin, psixotrop maddələrin və onların prekursorlarının insan orqanizminə zərəri, narkomanlığın profilaktikası mövzusunda bir sıra tədbirlər həyata keçirmişlər.

Orduda xidmət edən və ordu sıralarında işləyən mülki gənclər arasında sağlam həyat tərzinin təbliğ olunması, narkomanlığın fəsadları haqqında gənclərdə düzgün təsəvvürün formalaşması, eyni zamanda, ictimaiyyətin diqqətinin narkomanlıqla bağlı problemin həllinə cəlb olunması məqsədilə rayonun idarə, müəssisə və təşkilatları ilə birgə təlim-metodiki toplantılar, tərbiyəvi iş saatları, konfranslar, "dəyirmi masa"lar və seminarlar keçirilmişdir.

Ordu gənclərinin mədəni-asudə vaxtlarının səmərəli və düzgün təşkil edilməsi, sağlam həyat tərzinin təbliği məqsədilə hərbi hissələr, bölmələr və xüsusi təyinatlı təhsil müəssisələri arasında futbol, mini futbol, voleybol, boks, güləş, ağırlıq qaldırma, qol güləşi, kəndir dartma, şahmat, dama, estafet qaçışları, ərazidə səmti müəyyənetmə, intellektual yarışlar və breyn-rinq turnirləri keçirilmişdir.

Bu gün gənc və yeniyetmələrin antinarkomaniya ruhunda tərbiyə olunması təkcə dövlətin üzərinə düşən məsuliyyət deyil. Bu məsuliyyətin mühüm bir hissəsi bütövlükdə cəmiyyətin, ordunun, hər bir vətəndaşın, ictimai qurum və təşkilatların, kütləvi informasiya vasitələrinin, həmçinin də mədəni-maarif müəssisələrinin üzərinə düşür. Narkomaniya ilə mübarizədə hər bir şəxsin fərdi və birgə fəaliyyətinə, barışmaz münasibətinə və əməli köməyinə böyük ehtiyac vardır.

Ən əsası narkotik asılılığı aradan qaldırmaq çətin olsa da, mümkündür. Narkotiklərdən istifadə edənlərin erkən müraciəti çox hallarda uğurlu müalicə ilə nəticələnir. Narkotik istifadəçiləri - narkomanlar çox vaxt qısa zamanda ailəsini, dostlarını, işini, əmlakını, sağlamlığını və həyatını itirirlər. Bu uçuruma sürüklənməyi saxlamaq hər bir gəncin öz əlindədir və bu işdə də onlar tək deyillər. Belə problemli gənclərə yardım etməyə hazır olan onlarla təşkilat və mütəxəssis vardır.

Narkomaniya bu gün bəşəriyyəti ciddi düşündürən, insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran qlobal problem olduğu üçün hər bir qurum, hər bir ailə, hər bir şəxs narkomanlığın profilaktikası sahəsində əlindən gələni əsirgəməməlidir. Elə biz də...

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Həmvətənlərini arxasınca döyüşə aparan komandirin xatirəsi yad edilib

*Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalan Azərbaycan Ordusunun hərbi qulluqçularından biri də mayor Taleh Adil oğlu Kərimovdur.*



Yeddi bacının tək qardaşı olan Taleh Sumqayıt şəhərində dünyaya göz açıb. Yaşasaydı 36 yaşı tamam olacaqdı.

Sumqayıt şəhərindəki "İstedad" liseyini müvəffəqiyyətlə başa vurub hərbçi olmaq istəyini ailədə bildirəndə heç kim onunla razılaşmayıb. Nə valideynləri, nə də yeddi bacısı. "Ailədə tək oğulsan, sən də orduya getsən bəs biz kimin umuduna qalacağıq?" deyib onu fikrindən döndərməyə çalışsalar da Taleh inadından dönməyib.

O, respublikamızın xüsusi təyinatlı təhsil müəssisələrinin flaqmanı olan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə üz tutub. Hələ kursant olduğu vaxtlarda "Azərbaycan Ordusu" qəzetinin müxbirinin "Nə üçün zabitlik peşəsini seçdin? sualını bu cür cavablandırıb: "Mən sizin bu sualınıza ulu öndər Heydər Əliyevin bir vaxtlar dediyi fikirlərlə cavab vermək istərdim. "Azərbaycan öz oğullarına - təcrübəli mütəxəssislərə bu gün həmişəkindən daha çox möhtacdır. Elə mütəxəssislərə ki, həmvətənlərini öz arxasınca aparmağa, düşmənin qarşısında igidliklə durmağa, onu pərən-pərən salıb doğma torpaqdan qovmağa qadirdirlər".

Ali hərbi məktəbi və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu müvəffəqiyyətlə bitirən gənc zabit bütün xidməti boyu Ulu Öndərin dediklərini öz əməli fəaliyyəti ilə doğruldub. Motoatıcı taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi - kəşfiyyat taqımının komandiri vəzifəsindən Müdafiə Nazirliyinin Kəşfiyyat Baş İdarəsinin baş zabiti vəzifəsinə, "mayor" hərbi rütbəsinədək ucalıb. Xidmətləri komandanlıq tərəfindən həmişə yüksək qiymətləndirilib. Azərbaycan Respublikasının Prezidenti adından Müdafiə nazirinin əmri ilə 5 yubiley və döyüş medalı ilə təltif olunub. Ata və anası dünyasını dəyişsələr də yeddi bacı tək qardaşları ilə fəxr edib, qürur duyublar. Hamının sevimlisinə çevrilib mayor Taleh Kərimov.

Vətən müharibəsinin ilk günündən hərbi hissənin kəşfiyyat rəisi - kəşfiyyat bölməsinin rəisi kimi döyüşlərə qatılıb. Xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib. Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının bir çox yaşayış məntəqələrinin işğaldan azad edilməsində mühüm kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib. Hərbi əməliyyatlar zamanı mərmilər dolu kimi yağanda, topların gurultusundan yer-göy bir-birinə qarışanda, qan su yerinə axanda mayor Taleh Kərimov Ulu Öndərimizin arzu etdiyi kimi həmvətənlərimizi öz arxasınca aparıb, düşmən qarşısında igidliklə durub, onları pərən-pərən salıb doğma torpaqdan qovmağa qadir olduğunu bir daha təsdiq edib.

Yeddi bacının tək qardaşı mayor Taleh Kərimov 2020-ci il oktyabrın 30-da Qubadlı rayonu ərazisində sübh tezdən mühüm kəşfiyyat tapşırığını yerinə yetirərkən qəhrəmanlıqla şəhid olub. Yeddi bacı və onun ömür-gün yoldaşı Nəzakət xanım, eləcə də döyüşçü dostları, tabeliyindəki kəşfiyyatçılar bu ağır itkiyə üzülsələr də, onun göstərdiyi qəhrəmanlıqlardan qürur duyaraq "Vətən sağ olsun!" deyiblər.

Müdafiə Nazirliyi hər bir şəhidin xatirəsini əziz tutur, onların göstərdiyi şəxsi şücaət və igidlik nümunələrinin təbliği, adlarının əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirir, gənc əsgər və zabitlərə onları örnək olaraq təqdim edir.

Avqustun 30-da Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu Sumqayıt şəhərində olub, Şəhidlər xiyabanını ziyarət edərək mayor Taleh Kərimovun məzarı üzərinə əklil qoyub, xatirəsini ehtiramla yad ediblər.

Sumqayıt şəhər İcra Hakimiyyəti rəsmilərinin, şəhidin yaxınlarının, Vətən müharibəsi iştirakçılarının və qazilərin, şəhid ailələri üzvlərinin, xidmət yoldaşları və döyüşçü dostlarının iştirak etdiyi anım tədbirində polkovnik Abdulla Qurbani mayor Taleh Kərimovun zabit kimi yüksək əxlaqi, iradi keyfiyyətlərə malik bir zabit, insan kimi səmimi, təvazökar, vətənpərvər bir insan olduğunu bildirib və onunla bağlı xatirələrini söyləyib.

Nəzərə çatdırılıb ki, sağlığında xidmətləri yüksək qiymətləndirildiyi kimi, ölümündən sonra da Vətən, xalq, dövlət qarşısında xidmətləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən yüksək dəyərləndirilib.

Mayor Taleh Adil oğlu Kərimov ölümündən sonra Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsi və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və bir neçə döyüş medalı ilə təltif olunub.

General-mayor Hilal Nəcəfov mayor T.Kərimovun cismən aramızda olmadığını, onun daim xatirələrdə yaşayacağını əminliklə bildirib: "Mən Talehi çox yaxşı tanıyırdım. Dəfələrlə onunla söhbət etmişəm, məruzələrini dinləmişəm, tapşırıqlar və göstərişlər vermişəm. Çox gözəl insan, məsuliyyətli zabit idi. O, zabitlik peşəsini seçəndə bilirdi ki, bu peşə heç də asan peşə deyildir. Ancaq şərəfli, milləti, xalqı, torpağı qorumaq peşəsidir. O, həm də yaxşı bilirdi ki, qarşıda böyük vəzifələr durur, uzun yol durur. Bu yol isə hamar deyil, enişli-yoxuşludur.

Taleh sevdiyi yolu seçdi, bu yollarla kişi kimi irəlilədi. Şəhidlik zirvəsinə qədər şərəfli bir yol keçdi. Təsəllimiz ondadır ki, mayor Kərimovun, o cümlədən bütün şəhidlərimizin qanı yerdə qalmadı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında, dəmir yumruğun sayəsində şəhidlərimizin intiqamını döyüş meydanlarında vuruşaraq aldıq. Qazandığımız möhtəşəm qələbəyə görə biz ilk növbədə şəhidlərimizə, o cümlədən taleyinə zabitlik peşəsi, bir də tarixi qələbə yazılan Taleh qardaşımıza minnətdarıq".

Qafqaz Müsəlmanları İdarəsinin rəsmi nümayəndəsi Hacı Rauf Sumqayıtdakı Şəhidlər xiyabanının əsl ziyarətgaha çevrildiyini, insanların bura gələrkən qürur hissi keçirdiklərini, Qələbə şəhidlərinin qəhrəmanlıqları ilə öyündüklərini vurğulayıb. Şəhidlik mövzusunda ibrətamiz söhbətləri ilə şəhidlərimizin ölməzliyini, əbədiliyini bir daha qeyd edib, şəhidlərin müqəddəs ruhuna dualar oxuyub.

Sumqayıt şəhər İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri üzrə iş şöbəsinin müdiri, Vətən müharibəsinin qazisi, ehtiyatda olan kapitan Tərlan Hacızadə şəhid ailələrinə göstərilən hərtərəfli dövlət qayğısından, onların sosial problemlərinin həlli istiqamətində görülən ardıcıl və məqsədyönlü tədbirlərdən danışıb və hazırda Sumqayıtda da Prezident sərəncamı ilə təsis olunmuş 27 sentyabr Anım Gününə ciddi hazırlıq işlərinin görüldüyünü, Şəhidlər xiyabanında geniş tikinti-abadlıq işlərinin aparıldığını qeyd edib.

Tədbir başlanandan şəhid mayorun məzarı qarşısında farağat vəziyyətində dayanan Vətən müharibəsi qazisi Bahadur Talıbov növbəti əməliyyatı yada salaraq deyib: "Bu əməliyyatın həm komadirim, həm də mənim üçün son əməliyyat olacağını gözləmirdik. İnanırdıq ki, bu dəfə də verilən tapşırığı uğurla yerinə yetirərək, geri dönəcəyik. Başqa cür də ola bilməzdi. Komandirimiz əməliyyata elə peşəkarlıqla hazırlaşar, elə plan cızardı ki, heç vaxt peşman olmazdıq. Bir də mayor Kərimov əsgərlərin arxası ilə döyüşə gedən zabit deyildi. O, döyüşçüləri arxası ilə aparan komandir idi. Hər bir əsgərə əmanət kimi baxar, övladı olmasa da, tabeliyində olan hər bir döyüşçünü özünə oğul bilər, onları qoruyardı. Komandirimizin tədbirli, düşünülmüş hərəkətləri nəticəsində neçə-neçə kəşfiyyatçımız ölümün pəncəsindən xilas olmuşdu. Qubadlı uğrunda döyüşlərdə əziz komandirim canından keçdi, mən isə gözümdən oldum. Lazım gələrsə, Vətənim üçün ikinci gözümdən də keçməyə hazıram. Təki Vətən sağ olsun, komandirimin ruhu şad olsun!".

Polkovnik Abdulla Qurbani Şuşada keçirilən Vaqif poeziya günlərinin rəsmi açılışında dövlətimizin başçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi fikirlərlə şəhid mayorun məzarı qarşısında keçirilən anım tədbirinin başa çatdığını bildirib: "44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan Qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq".

Qələbə şəhidlərindən biri olan mayor Taleh Kərimovun vaxtilə yaşadığı binanın həyətində də qələbəlik var idi. Burada şəhidin şərəfinə inşa edilən xatirə abidəsinin açılış mərasimində icra hakimiyyəti və Müdafiə Nazirliyinin rəsmiləri, qazilər, şəhid ailələrinin üzvləri çıxış ediblər.

Şəhidin həyat yoldaşı Nəzakət xanım və bacısı Pərvanə xanım göstərilən diqqətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Müdafiə Nazirliyinin, eləcə də Sumqayıt şəhər İcra Hakimiyyətinin rəhbərliyinə və bütün tədbir iştirakçılarına minnətdarlıqlarını bildiriblər.

Çıxış edənlər təkcə yeddi bacının tək qardaşı deyil, hamımızın qardaşı, əzizi, doğması olan mayor Taleh Kərimovun xatirəsinin nə qədər ki Azərbaycan var, Azərbaycan xalqı var əbədi yaşayacağına əminliklərini bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Fransa portalı: İtkin düşmüş və girov götürülmüş 4 min azərbaycanlıya görə Ermənistan cəzalandırılmalıdır

*Fransanın "Mediapart" portalında "Beynəlxalq İtkinlər Günü: Azərbaycan 4000 itkinini xatırlayır" sərlövhəli məqalə dərc olunub.*

AZƏRTAC xəbər verir ki, məqalədə ötən əsrin 90-cı illərində Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzündən, Birinci Qarabağ müharibəsindən, bu müharibə zamanı 4000 azərbaycanlının itkin düşməsindən və girov götürülməsindən bəhs olunur. Bildirilir ki, beynəlxalq hüququn girov götürməni, kütləvi edamları və zor gücünə yox etməni qəti şəkildə qınamasına baxmayaraq, Ermənistan işğal etdiyi torpaqlarda günahsız insanlara qarşı təcavüzkar siyasət aparıb. Ermənistan bununla 1949-cu il Cenevrə Konvensiyasının müharibə əsirləri və mülki vətəndaşlar ilə rəftara dair müddəalarını açıq şəkildə pozub. İşgəncələr, insan ləyaqətini alçaltma kimi hallar Ermənistan hərbçiləri tərəfindən sistemli və kollektiv şəkildə həyata keçirilib.

Yazıda vurğulanıb ki, Azərbaycanın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının çoxsaylı müraciətlərinə baxmayaraq, Ermənistan itkin düşmüş və ya əsir götürülmüş 4 min azərbaycanlı haqqında məlumat verməkdən imtina edib. Onlar haqqında heç bir məlumat yoxdur. Qısa məlumatlar isə əsirlikdən azad olmuş bir neçə şahidin ifadələri əsasında əldə edilib. Ermənistan isə Azərbaycana qarşı hərbi təcavüzə və 30 ildir bəşəriyyətə qarşı törətdiyi cinayətlərə görə hələ də cəzalandırılmayıb.

Diqqətə çatdırılıb ki, hazırda Azərbaycan Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə əməkdaşlıq edərək, itkin düşmüş insanların yaxınlarının DNK nümunələrini toplayaraq itkin düşən insanların qalıqlarını tapacağına ümid edir. Azad edilmiş torpaqlarda kütləvi məzarlıqların aşkarlanacağı və itkinlərin cəsədlərinin tapılacağı gözlənilir. Ancaq bu ərazilərin erməni təcavüzkarları tərəfindən minalanması belə işlərin aparılmasını ləngidir.

Həmçinin qeyd edilib ki, bu, 4 min azərbaycanlı itkinin xatirəsini anmaq, ədaləti bərpa etmək məqsədilə işlərin başlanğıcıdır. Bu cinayətlərə görə beynəlxalq qurumlar Ermənistana qarşı hələ də heç bir sanksiya tətbiq etməyib və itkinlərə görə təzminat ödənilməsi tələb olunmayıb.

*Tarix yazan oğullar*

# Şəhidlər hər birimizin doğmasıdır

Şəmkirdə anadan olmuşdu. Şəmkirdə böyüyüb boya-başa çatmışdı. Cahangir Rüstəmov adına orta məktəbi bitirmişdi. O da uşaqlığından müharibənin nə olduğunu dərk etmişdi. Düşmənin atəşkəsi pozmasını, sərhədlərimizdə təxribatlar törətməsini, ərazilərimizi işğal olunan ərazilərdən də atəşə tutduğunu o da bilirdi. Digər həmyaşıdları kimi bunları ağrılarla yaşayanlardan biriydi Emin. Sonuncu sinifdə oxuyanda Aprel döyüşləri başlamışdı. Yoldaşları kimi o da döyüşlərə getmək istəmişdi. Müəllimləri şagirdlərinin bu istəyini bəyənsələr də demişdilər ki, düşmənin hücumunun qarşısını ordumuz alacaq, siz borcunuzu hərbi xidmət zamanı yerinə yetirərsiniz. Eyni fikirləri onlara Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə rayon şöbəsində də demişdilər.



Ali təhsil almaq istəyi ilə sənədlərini universitetə vermişdi. Qəbul imtahanlarından yığdığı bal qəbul olunmağa imkan vermədi.

Emini də hərbi xidmətə çağırdılar.

Təcrübəli əsgər yoldaşlarının, zabitlərin məsləhətləri ilə hərbi xidmətə alışır, alışa-alışa hərbi xidməti sevirdi. Hərbi xidmətinin onuncu ayında əsgər yoldaşlarına demişdi ki, mən gələcək həyat yolumu müəyyənləşdirdim. Həqiqi hərbi xidmətdən sonra da xidmət edəcəm. Ali Baş Komandanın əmri ilə başlayacaq döyüşlərdə mən də iştirak edəcəm. Şəmkirə qaliblər kimi qayıdacam. O vaxtlar universitetə qəbul oluna bilməyəndə bir qədər təəssüflənmişdim, indi o gün üçün sevinirəm...

Emin Alməmmədov hərbi xidmətdən tərxis edildi. Xidmətini gizir kimi davam etdirdi.

Bütün hərbi qulluqçular kimi Emin Alməmmədov da torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərin başlayacağı günün intizarındaydı. Ali Baş Komandanın əmri ilə döyüşəcəkdilər.

2020-ci ilin sentyabrın 27-də Ermənistan silahlı birləşmələri böyük təxribatlar törətmək, yeni ərazilər işğal etmək niyyəti ilə müxtəlif istiqamətlərdən hücuma keçdi. Azərbaycan Ordusunun hissələri düşmənin hücumunun qarşısını qətiyyətlə aldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatı başladı. Bu əməliyyat ilkin olaraq düşmənin hücumunun qarşısını almaq idi, Vətən müharibəsi kimi davam etdirildi. Gizir Emin Alməmmədov da döyüşənlərin sırasındaydı...

Murovdağ istiqamətində gərgin döyüş gedirdi. Murovdağ aşırımı Kəlbəcərə aparacaq döyüş yolunun başlanğıcı idi. Döyüşçülər Kəlbəcərə aparacaq bu yolların sonunda qələbə olacağını bilir və bu qələbəni tezləşdirmək üçün döyüşürdülər.

Vətən müharibəsinin ilk günü idi. Ağır döyüş gedirdi...

Emin Alməmmədova müharibənin gecəsini görmək qismət olmadı; Emin Alməmmədov şəhid oldu...

Vətən müharibəsi Zəfərlə başa çatdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə Emin Alməmmədov "Hərbi xidmətlərə görə", "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edildi...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocəsəndə şəhid ailələri və müharibə əlillərinə mənzil və avtomobillərin verilməsi mərasimində çıxışında dedi: "Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin qisasını döyüş meydanında aldıq və bununla fəxr edə bilərik. Öz yaxınlarını itirmiş insanlar, hesab edirəm, bununla təsəlli tapa bilərlər. Çünki onların qəhrəmanlığı, onların şücaəti və fədakarlığı torpaqlarımızın azad olunmasına xidmət etdi. Məhz onların qanı bahasına biz torpaqları almışıq, geri qaytarmışıq". Ölkə başçısının minnətdarlığı bütün şəhidlərimizə ünvanlanıb...

Şəhidlər hər birimizin doğmasıdır...

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Naxçıvan "Marş İrəli" adlı hərbi simulyasiyalı layihənin 4-cü mövsümünə ev sahibliyi edir






Ölkə gənclərində vətənpərvərlik ruhunun yüksəldilməsi, fiziki dözümlülüyün artırılması, rəqabətədavamlı və sağlam gəncliyin inkişafına xidmət edən "Marş İrəli" adlı hərbi simulyasiyalı layihənin 4-cü mövsümünə Naxçıvan ev sahibliyi edir.



Heydər Əliyev adına hərbi liseydə təşkil olunan açılış mərasimi ilə layihəyə start verilib. Mərasimdə Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Dövlət Himni ifa olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev "Marş İrəli" layihəsinin qədim diyarımızda gerçəkləşən uğurlu tədbirlərdən biri olacağına inamlarını ifadə ediblər.

Açılış mərasiminin ardınca iştirakçılar ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri düzüb, Heydər Əliyev Muzeyi ilə tanış olublar. Daha sonra Şəhidlər xiyabanı və Vətən müharibəsi şəhidlərinin məzarları ziyarət olunub, Azərbaycanın azadlığı və suverenliyi uğrunda həlak olan soydaşlarımızın ruhuna dualar oxunub. Nahar fasiləsindən sonra iştirakçılar Əcəmi Seyrangahında olub, Ümummilli Liderin burada ucaldılmış büstü ziyarət olunub, ardınca Möminə Xatun və Açıq Səma Altında Muzey kompleksi, həmçinin Xan Sarayı Dövlət Tarix-Memarlıq Muzeyi ilə tanış olublar. Axşam saatlarında tədbirin açılış konserti reallaşıb.

5-9 sentyabr tarixlərini əhatə edəcək layihənin gündəlik proqramı tərtib olunub, düşərgə üçün əlverişli məkan seçilib. "Marş İrəli"nin konseptinə uyğun olaraq gender bərabərliyi qorunmaqla 17-25 yaş aralığında, həqiqi hərbi xidmət keçməmiş 100 gənc düşərgədə iştirak haqqı qazanıb. Onlardan 70-i Naxçıvan gəncləridir.

Layihə Əlahiddə Ümumqoşun Ordunun dəstəyi, Azərbaycan Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Gənclər Fondu və "İrəli" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilir.

# Xəbərlər: hadisələr, faktlar

## Qvineyada hərbi çevriliş baş verib, Alfa Konde həbs olunub



Qvineyada qiyamçıların lideri polkovnik Mamadi Dumbuya Prezident Alfa Kondenin həbs olunduğunu elan edib.

M.Dumbuya ölkədə sosial, siyasi və iqtisadi vəziyyətin həddən artıq ağır olduğundan hərbçilərin Qvineyanın gələcəyi üçün məsuliyyəti öz üzərlərinə götürmək barədə qərar qəbul etdiklərini bildirib.

Polkovnik ölkədə Konstitusiyanın qüvvəsini dayandırdığını, parlamentin buraxıldığını, sərhədlərin bağlanıldığını bəyan edib və hərbçiləri kazarmalarda qalmağa çağırıb. O, Milli Birlik və İnkişaf Komitəsinin lideri postunu tutduğunu bildirib.

Qeyd edib ki, bu Komitənin məqsədi dövlətin qarşısında duran problemlərin həlli üçün ölkənin bütün vətəndaşlarını birləşdirməkdir.

Bu arada BMT-nin Baş katibi Antonio Quttereş öz tivitter səhifəsində Qvineyada dövlət çevrilişini pislədiyini bildirib.

"Qvineyadakı vəziyyəti çox yaxından izləyirəm. Hökumətin silah gücü ilə ələ keçirilməsini şiddətlə qınayıram və prezident Alfa Kondenin dərhal sərbəst buraxılmasına çağırıram", - deyə BMT-nin Baş katibi vurğulayıb.

## ABŞ-da baş verən atışmada 4 nəfər ölüb



ABŞ-ın Florida ştatında atışma baş verib.

Atışma nəticəsində bir uşaq da daxil olmaqla 4 nəfər öldürülüb.

Hazırda cinayətkar (Brayan Rayli) xəstəxanadadır, daha sonra o, həbs ediləcək.

Qeyd edilir ki, Brayan Rayli metamfetamin adlı narkotik vasitə qəbul etdiyini bildirib.

## Pakistanda baş verən partlayış 3 nəfərin həyatına son qoyub



Pakistanın Bəlucistan əyalətinin Kvetta şəhərində baş verən partlayış azı üç nəfərin həyatına son qoyub.

Partlayış nəticəsində 20 nəfər yaralanıb. Polis hadisənin terrorçu-kamikadze tərəfindən törədildiyini bildirib. Partlayışa görə məsuliyyəti hələ ki heç bir qruplaşma öz üzərinə götürməyib.

## Liviyada silahlı qruplaşmalar arasında atəşkəs pozulub



Liviyanın paytaxtı Tripolinin cənubunda şərq və qərb qüvvələrinə aid silahlı qruplaşmalar arasında bir il əvvəl elan edilmiş atəşkəs pozulub.

Liviya paytaxtının Səlahəddin rayonunda orta və kiçik kalibrli silahlardan istifadə olunmaqla bir neçə saat davam edən atışmalar baş verib. İnsident nəticəsində həlak olanların və yaralıların sayı açıqlanmır.

Liviya Prezident Şurasının rəhbəri Məhəmməd Menfi ordunun baş qərargah rəisinə və baş prokurora silahlı qruplaşmaların atəşkəsi pozmasının araşdırılması barədə göstəriş verib.

Bu ilin dekabrında Liviyada keçiriləcək ümumxalq seçkiləri ərəfəsində ölkədə vəziyyətin gərginləşməsini istəyən qüvvələrin fəallaşdığı bildirilir. Ötən həftə keçirilmiş Liviyaya qonşu ölkələrin xarici işlər nazirlərinin konfransında da bununla bağlı narahatlıq ifadə edilib. Liviyanın xarici işlər naziri Nəcla Əl-Manquş bildirib ki, atəşkəsin və daxili sabitliyin pozulması seçkilərin təxirə salınmasına səbəb ola bilər.

**AZƏRTAC-ın materialları əsasında**

*Nümunəvi xidmət*

# “Məsuliyyətlə xidmət edirik, məsuliyyətli vətəndaş olacağıq”

"Elin o başı, bu başı olmur". El deyimlərindəndir. Bu düşündürücü deyimi "Vətənin o başı, bu başı olmur" kimi də deyə bilərik; Vətən sərhədlərlə əhatələnmiş ərazi olduğuna görə, hər tərəfi ruhumuzun ad göstəricisi olduğuna görə. Ata Laçındandı, köçkün düşüb, Şəkidə məskunlaşıb. Evlənib, oğlu olub. Rauf şəkildirmi, laçınlıdırmı? "Şəkini də sevirəm, uşaqlığım, yeniyetməliyim orada keçib. Atamın söhbətlərini hər xatırlayanda Laçına dönəcəyimiz günün həsrətiylə necə yaşadığını heç zaman unutmaram, unuda bilmərəm", - əsgər Rauf Həsənli belə dedi. Bu fikirləri onun düşüncələrinin mahiyyəti kimi dinlədim.

Hərbi hissənin zabiti Sənan Cəlilov onun nümunəvi xidmət etdiyini, Nizamnamələrin tələblərini məsuliyyətlə yerinə yetirdiyini dedi:

- Əsgər Rauf Həsənli Azərbaycan Dövlət İqtisad Universitetinin məzunudur. Hərbi hissədə keçirilən bütün tədbirlərdə fəal iştirak edir. Ailədə valideynlərindən, məktəbdə müəllimlərindən eşitdikləri, şagird olanda da, tələbə olanda da mütaliəsi onun dünyagörüşünün formalaşmasında müstəsna rol oynayıb. O, həm də əsgər dostluğunu arzulanan səviyyədə yaşatmağı bacarır.



Rauf uşaqlıq illərindən söz açır.

- Aprel döyüşləri zamanı orta məktəbdə oxuyurdum. Sinif yoldaşlarım kimi mən də yaşımızın azlığına görə döyüşlərə gedə bilməzdik. Aprel döyüşləri haqqında oxuduqlarımız, eşitdiklərimiz ordumuzun torpaqlarımızı işğaldan azad edəcəyi inamımıza döndü. Tez böyümək, hərbi xidmətə getmək istəyirdik. Onu da arzulayırdıq ki, kaş torpaqlarımızın işğaldan azad edilməsi üçün döyüşlər biz əsgər olanda başlayaydı..., - Rauf belə dedi.

Vətən müharibəsindən danışdıq, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdən, qəhrəmanlıqlardan, qəhrəmanlardan danışdıq. "Laçının işğaldan azad edildiyini eşidəndə atamın yaşadığı duyğular mənim Vətən anlayışımı kükrətdi. Atamın kövrəldiyini ilk dəfə onda gördüm. Bir daha anladım ki, Vətən ruhumuzun beşiyidi...", - nümunəvi xidmət edən əsgərin düşüncələrini də bəyəndim.

Söhbətləşəndə əsgər Rauf Həsənli onu da dedi ki, əsgərin döyüş hazırlığı ordunun döyüş hazırlığı deməkdir. Buna görə də hər əsgər təkcə özünün deyil, həm də ordunun döyüş hazırlığının yüksəldilməsinə məsuliyyət daşıyır. Həm hərbi məsuliyyət, həm də mənəvi məsuliyyət. Bu hazırlıq Vətən müharibəsində qalibiyyəti təmin etdi. Ordumuzun şəxsi heyəti bundan sonra da yüksək döyüş hazırlığıyla fərqlənəcək, bundan sonra da dünyanın ən güclü ordularından biri kimi tanınacaq...

Söhbətimizin əvvəlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik" fikirlərini xatırladan əsgər Azərbaycan vətəndaşlarının, Azərbaycanı sevənlərin Zəfərdən sonrakı mənəvi vəzifələrindən danışdı, fikrini ölkə başçısının "Bu gün Şuşaya bu torpaqların sahibləri kimi qayıtmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün mən Müzəffər Ordumuzun Ali Baş Komandanı kimi Hadrut qəsəbəsində milli bayrağımızı qaldırdım. Bu bayraq burada əbədi dalğalanacaq. Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq. Bütün dağılmış şəhərləri, kəndləri yenidən quracağıq, həyat qayıdacaq, insanlar qayıdacaq və biz bütün dünyaya bir daha xalqımızın böyüklüyünü göstərəcəyik" fikri ilə tamamladı.

Əsgər Babək Əliyev deyir ki, Raufla eyni universitetin məzunuyuq. Tələbəlik illərində hərbi xidmət, hərbi xidmətə getmək haqqında düşünərdik. İndi əsgərik. Rauf da, mən də, digər əsgər yoldaşlarımız da bütün əmr və göstərişləri məsuliyyətlə yerinə yetiririk.

- İqtisadçıyam. Hərbi xidmətdən sonra işğaldan azad edilmiş ərazilərimizdə işləmək niyyətindəyəm. Vətən müharibəsində iştirak etmədik, Zəfərdən sonra quruculuq işlərində iştirak edəcəyik...

Əsgər Rauf Həsənlinin düşüncələri bizə bir həqiqəti əminliklə yaşatdı: Azərbaycan əsgəri torpağını məsuliyyətlə, sevgilərlə qoruyur da, hərbi xidmətdən sonra işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işlərində eyni sevgilərlə iştirak edəcək də...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**



*Hərbi texnikalar, silahlar*

# ZAHA zirehli transportyoru



***Türkiyənin FNSS şirkəti tərəfindən hazırlanan amfibiya tipli ZAHA (Zırhlı Amfibi Hücum Aracı) zirehli transportyoru 2019-cu ildə İstanbul şəhərində keçirilən “İDEF-2019” müdafiə-sənaye sərgisində rəsmi olaraq təqdim edilib.***

Zirehli amfibiya hücum avtomobili (ZAHA) FNSS tərəfindən Hərbi Dəniz Qüvvələri Komandanlığının əməliyyat konsepsiyası və tapşırıq tələbləri nəzərə alınmaqla hazırlanmışdır. ZAHA Hərbi Dəniz Qüvvələri Komandanlığının yeni flaqmanı olan TCG (Türkiyə Cümhuriyyət Gəmisi) Anadolunun amfibiya əməliyyatlarında istifadə ediləcəyi gözlənilir. ZAHA, amfibiya əməliyyatları zamanı gəmi və sahil arasında məsafəni ən sürətli qət edə biləcək bir vasitədir. Qoşunların qoruma altında və atəş dəstəyi ilə mümkün qədər tez yerə enməsini təmin edir.

Verilən məlumata görə, bu maşınların ilk partiyası 2022-ci ildə HDQ-nin sərəncamına veriləcək.

FNSS ZAHA zirehli transportyoru yüksək mobilliyə malikdir. Onun dənizdə maksimal sürəti 7 mil, quruda isə saatda 70 kilometrdir. Silahlanmasına məsafədən idarəolunan 12,7 mm-lik M2 pulemyotu və 40 mm-lik avtomat qumbaraatan daxildir. Maşının çəkisi 30 tondur. Onun ZTR variantının heyəti 3 nəfərdən və 21 desantdan ibarətdir. Zirehli transportyorun gövdəsi möhkəm zirehlənib. Bu da onu 14,5 mm-lik zirehdələn güllələrdən qorumağı təmin edir. Bundan başqa zirehli transportyor minaəleyhinə müdafiə elementləri, dairəvi görüntünü təmin edən beş kamera ilə də təchiz edilib. Zirehli transportyorda 600 at gücündə Caterpillar C13 mühərriki quraşdırılıb. Arxa tərəfində iki hərəkətverici fəvvarə var. Döyüş modulunu idarə etmək üçün zirehli transportyor müasir cihazlarla təmin edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan Tokio Paralimpiadasını 14 qızıl, 1 gümüş və 4 bürünc medalla başa vurub



Azərbaycan komandası sentyabrın 4-də "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarında iştirakını başa vurub.

Komandamız yarışda 19 medal - 14 qızıl, 1 gümüş və 4 bürünc qazanıb.

Millimizin heyətində paracüdoçular Şəhanə Hacıyeva (48 kq), Sevda Vəliyeva (52 kq), Xanım Hüseynova (63 kq), Vüqar Şirinli (60 kq), Hüseyn Rəhimli (81 kq), Dürsədəf Kərimova (+70 kq) qızıl, Namiq Abaslı (66 kq) və İlham Zəkiyev (+100 kq) bürünc medallara sahib olublar.

Raman Saleh Tokio Paralimpiadasında üç qızıl medal qazanıb. O, 100 metr məsafəyə arxası üstə, sərbəst və batterflay üsulu ilə üzmə yarışlarında Paralimpiya çempionu olub. Digər üzgüçümüz Vəli İsrafilov isə 100 metr məsafəyə brass üsulu ilə üzmə yarışında birinci yeri tutub. Nizəatma yarışında dünya rekordu müəyyənləşdirən para-atletimiz Həmid Heydəri qızıl medala sahib olub. Orxan Aslanov uzunluğa tullanma yarışında qızıl, Səid Nəcəfzadə isə bürünc mükafata layiq görülüb. Elvin Astanov nüvəitələmə yarışında birinci yeri tutub. Para-atlet Lamiyə Vəliyeva 100 metr məsafəyə qaçış yarışında ikinci, 400 metr məsafəyə qaçışda isə birinci pillədə qərarlaşıb. Pauerliftinqçi Pərvin Məmmədov (49 kiloqram) fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

## Şahmatçımız Rauf Məmmədov Avropa çempionatında 6-cı olub




İslandiyanın paytaxtı Reykyavikdə kişi şahmatçılar arasında Avropa çempionatı başa çatıb.

Azərbaycan şahmatçısı Rauf Məmmədov 7,5 xalla 6-cı yeri tutub. Onunla eyni xalı toplayan Nicat Məmmədov əlavə göstəricilərə görə 17-ci pillədə qərarlaşıb.

On bir turdan ibarət turnirin qalibi Rusiya təmsilçisi Anton Demçenko olub.

## Çimərlik güləşçimiz İtaliyada bürünc medal qazanıb



İtaliyanın paytaxtı Romada çimərlik güləşi üzrə dünya seriyasının ikinci mərhələsi keçirilib.

Qrup mərhələsini uğurla keçən güləşçimiz Oyan Nəzəriani (+90 kq) yarımfinalda İran idmançısı Soheyl Qolipurqudarziyə minimal fərqlə uduzub. Daha sonra rumıniyalı Vasile Karasa 3:0 hesabı ilə qalib gələn O.Nəzəriani turnirin bürünc medalına sahib olub.

## Azərbaycan millisi dünya çempionatının seçmə mərhələsində ilk xalını qazanıb



Futbol üzrə Azərbaycan millisi dünya çempionatının seçmə mərhələsində ilk xalını qazanıb. Sentyabrın 4-də millimiz A qrupundakı dördüncü oyununda İrlandiya yığmasının qonağı olub. Oyunda qalib müəyyənləşməyib - 1:1. İlk hissəyə əlavə olunmuş vaxtda futbolçumuz Emin Mahmudov baxımlı qola imza atıb. Matçın 87-ci dəqiqəsində İrlandiya millisinin üzvü Şeyn Duffi hesabı bərabərləşdirib.

Beləliklə, Azərbaycan millisi dünya çempionatının seçmə mərhələsində ilk xalını qazanıb. Komandamız hazırda 1 xalla 4-5-ci yerləri bölüşür.

**AZƏRTAC-ın materialları əsasında**

Tibb xidməti leytenantı Məmmədov Əşrəf Fəxrəddin oğluna məxsus MN № 0056739 nömrəli zabitin şəxsi vəsiqəsi yararsız hala düşdüyü üçün etibarsız sayılır.

**Baş redaktor vəzifəsini icra edən** kapitan Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 540
Nüsxə 4009